“Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 612 nömrəli Fərmanının 5-ci bəndinin iyirmi yeddinci abzasının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRARA ALIR:

1. “Peşə təhsili sahəsində ixtisas və ixtisaslaşma klassifikatoru” təsdiq edilsin (əlavə olunur)

2. 2. “Azərbaycan Respublikasında peşə təhsili sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 23 avqust tarixli 116 nömrəli qərarının 1-ci bəndindən “Peşə məktəbi və peşə liseylərində ixtisaslı fəhlə kadrlarının hazırlanması üçün peşələrin siyahısı (əlavə 4)” sözləri və həmin qərar ilə əlavə № 4 kimi təsdiq edilmiş “Peşə məktəbi və peşə liseylərində ixtisaslı fəhlə kadrlarının hazırlanması üçün peşələrin siyahısı” çıxarılsın.

3. Bu qərar imzalandığı gündən güvvəyə minir.

A.Rasi-zadə

Azərbaycan Respublikasının

Baş naziri

17 iyun, 2002-ci il

№ 96